**Azərbaycan Respublikası**

**Xarici İşlər Nazirliyi**

Haraya: TƏMİMİ

Tarix: 20.02.2017

Çıxış nömrəsi: S/35-4073/02/17

| | |
|---|---|
| Sənəd necə göndərilir: | ***Elektron poçt*** |
| Səhifələrin sayı: | **2 vərəq** |
| Məhdudluğu qrifi: | ***Adi*** |
| Təciliyi: | ***Adi*** |
| Vacibliyi: | ***Adi*** |

Diqqətinizə çatdırırıq ki, Azərbaycanın Almaniya, Argentina, Efiopiya, İndoneziya, İtaliya, Litva və Vyetnamdakı səfirliklərinin və Çilidəki diplomatik nümayəndəliyinin dəstəyi ilə Xocalı soyqırımı ilə əlaqədar təbliğat-təşviqat işinə töhfə vermək məqsədilə "Xocalıya ədalət" beynəlxalq kampaniyası çərçivəsində soyqırımın 25-ci ildönümünə həsr olunmuş video-çarx hazırlanmışdır. Video-çarxın hazırlanmasına texniki dətək CBC kanalı tərəfindən göstərilmişdir. Video-çarx XİN-in sosial şəbəkə profillərinə yerləşdirilmişdir.

Sözügedən video-çarx Xocalı soyqırımının ildönümü ərəfəsində diplomatik nümayəndəliklərimizin sosial şəbəkə profillərində Xarici İşlər Nazirliyinin və ya diplomatik nümayəndəliklərimizin adı qeyd edilmədən paylaşıla və təbliğat materialı kimi istifadə edilə bilər.

Video-çarxı 23 fevral tarixinə qədər aşağıdakı link vasitəsilə yükləmək mümkündür: https://goo.gl/0Tr1GQ

Video-çarxın hazırlanmasında göstərdikləri dəstəyə görə Azərbaycan Respublikasının Almaniya, Argentina, Efiopiya, İndoneziya, İtaliya, Litva və Vyetnamdakı səfirlikləri və Çilidəki diplomatik nümayəndəliyinə təşəkkürümüzü ifadə edirik.

Hörmətlə,

Nazir müavini Mahmud Məmməd-Quliyev

Mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev

İcraçı: Elgün Mehdiyev (2410)